# IX "Muğam" Televiziya Müsabiqəsi başlayır

**Ötən illərdə böyük maraqla izlənilən "Muğam" Televiziya Müsabiqəsinin sayca 9-cu yarışmasına start verilir. Heydər Əliyev Fondunun dəstəyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC və Mədəniyyət Nazirliyinin iştirakı ilə ərsəyə gələcək müsabiqənin maydan etibarən tamaşaçılara təqdim edilməsi nəzərdə tutulub.**

IX "Muğam" Televiziya Müsabiqəsində iştirak etmək istəyən yaşı 8-dən 30-dək olan yeniyetmə və gənclər sənədlərini Lənkəran, Bərdə, İsmayıllı, Xaçmaz, Şəki, Sabirabad və Gəncə Regional Mədəniyyət idarələrinə, Naxçıvan MR Mədəniyyət Nazirliyinə və Azərbaycan Televiziyasına təqdim edə bilərlər.

Müsabiqə iştirakçıları klassik və müasir Azərbaycan şairlərinin qəzəllərini muğam şöbələri üzrə təqdim edəcək, həmçinin xalq mahnıları, təsniflər və zərb-muğamları ifa edəcəklər. Onları milli musiqi alətlərindən ibarət instrumental ansambl müşayiət edəcək. IX "Muğam" Televiziya Müsabiqəsinin yarışmalarının Bakıda Beynəlxalq Muğam Mərkəzində, həmçinin respublikanın müxtəlif bölgələrində keçirilməsi nəzərdə tutulur. Avqustun sonunda isə final konsertin keçirilməsi və qaliblərin mükafatlandırılması planlaşdırılır.




Azərbaycan.- 2025.- 1 mart (№46).- S.11.